# Z.FREYDİN "MUSA VƏ TƏKTANRIÇILIQ" ƏSƏRİNDƏ DİNƏ BAXIŞI

***Nərgizxatun Həsənova,***
*Azərbaycan İlahiyyat İnstitutunun*
*Dinşunaslıq ixtisasının magistrantı*

## XÜLASƏ

Məqalə oxucuya təqdim olunarkən bir neçə nüans nəzərə alınmışdır. İlk olaraq Z.Freydin dinə, onun mənşəyinə, insan psixologiyasına, bütövlükdə isə cəmiyyətin həyatındakı mövqeyinə olan münasibəti təhlil olunmuşdur. Bu mənada, məqalənin tədqiqat obyektinin əsasını Z.Freyd qurucusu olduğu psixoanaliz və din təşkil edir. Bu münasibəti əhatəli şəkildə oxucunun diqqətinə çatdırmaq üçün Freydin həm psixologiyaya gətirdiyi yeniliklər, həm də din haqqındakı nəzəriyyələrini əhatə edən müxtəlif mənbələrdən nüanslar qeyd olunmuşdur. Dinə qarşı olan mənfi baxışının səbəblərini nisbətən başa düşmək üçün Freydin həyatına qısaca da olsa toxunulmuşdur. Bu, eyni zamanda, onun yaşadığı dini-mənəvi şəraitdən də asılı olmuşdur. Elmi fəaliyyəti, həmçinin fikirlərindən təsirləndiyi dövrünün tanınmış alimləri haqqında məlumatlar da bu məqalədə öz yerini tapmışdır. "Musa və təktanrıçılıq" kitabının seçilməsinin isə xüsusi səbəbi vardır. Bir çox tədqiqatçı tərəfindən bu əsər "Totem və tabu"nun bir davamı olaraq görülmüşdür. Burada diqqətəlayiq bir çox nüans vardır. Əsərdə Z.Freydin tarixə baxışı da fərqlidir. Belə ki, bir neçə tarixi fakta psixoanalizi tədbiq etmiş, nəticədə çox fərqli fikirlər ortaya çıxmışdır. Bu səbəbdən, tarixi Musa ilə Z.Freydin əsərdə haqqında danışdığı Musa arasında bir çox fərqlilik mövcuddur. Məqalədə əsas məqsəd bu fikirlərin doğruluğu, yaxud yanlışlığını müəyyənləşdirmək deyil. Ümumilikdə, Freydin bildirdiyi tərzdə din ilə psixoanaliz arasındakı əlaqəni görməkdir. Bu fikirləri qismən anlamaq üçün psixoanaliz nəzəriyyəsini və onun əsasını təşkil edən terminləri düzgün başa düşmək lazımdır. Bu məqsədlə də məqalədə Z.Freydin psixoloji, xüsusilə də psixoanalitik tezisləri tam obyektiv şəkildə qeyd olunmağa çalışılmışdır.

***Açar sözlər:*** *din, psixoanaliz, şüur, təhtəlşüur, travma, amneziya, instinkt, id, eqo, super-eqo, nevroz*

### Giriş

Psixologiya tarixinin önəmli şəxslərindən hesab olunan Z.Freydin müasir psixologiyanın formalaşmasında müstəsna xidmətləri olmuşdur. Z.Freyd psixoanalizin qurucusu kimi tanınaraq, həmçinin din ilə bağlı fikirləri bir sıra müzakirələrə səbəb olmuşdur. Dinin insanların həyatındakı önəmli rolu inkaredilməz olsa da, Z.Freydin sözügedən amilə baxışı tamam fərqlidir. Z.Freydin din haqqındakı

fikirləri ilə bağlı dünyada bir çox məqalə və kitablar yazılsa da, Azərbaycanda belə tədqiqatlar az saydadır. Məqalədə Freydin psixoanaliz metodundan istifadə edərək, dinə yanaşması tədqiq edilir. O, dinə nevrotik bir xəstəlik olaraq baxmışdır. Freydə görə, dinin mənşəyi insanın təbiət hadisələri və doğuşdan sahib olduğu motivlər qarşısındakı acizlik hissindən qaynaqlanır. Bu güclərlə mübarizə aparmaq üçün ağlından istifadə edə bilməyən insan dinə sığınır. Erkən yaşlarda meydana çıxan dinə qarşı meyillilik sonrakı yaşlarda yenidən təkrarlanır. İnsan öz daxilindəki və xaricindəki təhlükəli və bir o qədər də konkret olmayan qüvvələrə qarşı mübarizə aparmağa çalışdıqda, uşaqlıqda yaşadığı təcrübəyə geri dönür, sanki eyni situasiyanı yenidən yaşayır. Bu səbəbdən, din uşaqlıqda yaşadığımız təcrübələrimizin davamıdır. Biz həmin təcrübələri, sanki təzələyərək yenidən yaşayırıq.

İnsan uşaqlıq dövründə onu təhdid edən xarici və daxili qüvvələrlə həm rəğbət bəslədiyi, həm də qorxduğu ata obrazına sığınaraq mübarizə aparmışdır. Freyd bu nöqtədə dini uşaqlarda müşahidə edilən obsessiv nevroz ilə qarşılaşdırıb müqayisə edir. Bu fikirlərinə davam edərək Freyd belə bir nəticəyə gəlir ki, din uşaqlıqda yaşanan nevrozun səbəb olduğu oxşar vəziyyətlərdən qaynaqlanan ictimai bir nevrozdur (Fromm 2017, 22). Məhz bu iddia dindarların və teoloqların tənqidlərinə məruz qalmışdır.

Z.Freyd Tanrı inancının insanın öz daxilində hiss etdiyi çarəsizlik hissi ilə mübarizə aparma üsulu kimi meydana çıxdığını irəli sürmüşdür; yəni Tanrı müqəddəsləşdirilmiş ata obrazının inikasıdır. Teoloqlar isə Freydin bu iddiasına belə cavab vermişlər: "İnikas hadisəsinin doğru olduğunu qəbul etsək belə, bunun mənbəyi biz deyilik, Tanrının özüdür" (Köse 2016, 126). Belə desək, Tanrı özünü insanlara bildirmək üçün belə üsuldan istifadə edir. İnsanda bunu daşıya biləcək bir qabiliyyət meydana gətirərək onda təcəlli edir (Köse 2106, 126; Coşkun 2006,140).

Z.Freyd müəllifi olduğu bir çox əsərdə dinin mənşəyi mövzusuna toxunmuşdur. Belə ki, 1913-cü ildə yazdığı "Totem və tabu" (Totem and Taboo) adlı kitabı bu mövzuda böyük əhəmiyyətə malikdir. Freydin yazdığı kitablar arasında ən yaxşısı olaraq ifadə etdiyi "Totem və tabu"da ibtidai insanın totem və tabu ilə olan əlaqəsini, həmçinin cəmiyyətin ilk dini təcrübəsi haqqında məlumat verən antropologiyanın nəticələrini psixoanaliz vasitəsilə izah edir. Totem əvvəlcə atanın yerini tutan, daha sonra isə Tanrıya çevriləcək bir simvoldur; yəni, Tanrı müqəddəsləşdirilmiş ata obrazı vasitəsilə formalaşmışdır (Köse 2016, 83). Z.Freyd tərəfindən "Totem və tabu"da ortaya qoyulan nəzəriyyə bundan ibarətdir: qeyri-müəyyən bir dövrdə yaşamış ibtidai insanlar gücə və qüdrətə sahib olan "primal (ilkin) ata"nın hakimiyyəti altında qruplar şəklində yaşamışlar. Qrupdakı hər şey, eyni zamanda, bütün qadınlar hakimiyyətdə olan ataya məxsusdur və o, istədiyi kəsi öldürmək ixtiyarına sahibdir. Bu səbəbdən, qrupda yaşayan oğullardan heç kim atanın qəzəbinə tuş gəlmək istəmir. Oğulların yeganə çıxış yolu başqa bir qrupdan qadın oğurlamaq, yaxud atadan ayrılıb yeni qrup yaratmaqdır. Yaradılan yeni qrupa ən güclü oğul başçılıq edir. Primal atanın oğullar üzərindəki hakimiyyəti bir müddət sonra sona çatır. Oğullar birləşərək atanı öldürüb, adətə görə, ətini yeyirlər. Öldürülən atanın ətini yemək adəti isə Freydin "Edip (oedipus) kompleksi" nəzəriyyəsinin əsasını təşkil edən qarşıdurma duyğusunun

simvolik təzahürünü təşkil edir. Bu hadisə, həmçinin ataya nifrət etməklə bərabər, ona qarşı duyulan rəğbət hissinin bir ifadə formasıdır (Koç 2002, 79; Köse 2016, 86-86-88).

Freydin dini düşüncələrindən bəhs etdiyi digər bir əsəri "Bir illüziyanın gələcəyi" (The Future of an Illusion) adlanır. Onun 1927-ci ildə qələmə aldığı bu əsərdə dinin gələcəyinin puçluğu və gələcəyin tamamilə elmə aid olduğu dönəmdə dinin yox olub səhnədən silinəcəyi fikri irəli sürülmüşdür. Freydə görə, elm öz töhfələrini artırdıqca, din tədricən yox olacaq. Din haqqındakı ən mənfi fikirlərini alim məhz bu əsərində qələmə alaraq, xəyali bir rəqibi ilə öz fikirlərini bölüşmüş, əks tərəfdən bildiriləcək etirazlara öz mövqeyini açıqlamışdır. Freydə görə, din əqli bir nəticə olmadığına görə tamamilə illüziyadan ibarətdir. Burada onun ifadə etdiyi əsas fikir insanın təbiət qarşısındakı acizliyi səbəbindən, uşaqlıqda güclü və qoruyucu olan ata simvolunun davamı kimi Tanrı obrazı axtarışında olmasıdır (Köse 2016, 119-120). Eyniadlı kitabında Freyd qeyd edir ki, əsrlər boyu insanlığın xidmətində durmasına baxmayaraq, din bəşəriyyəti xoşbəxt edə bilməmiş, ehtiyaclarını təmin etməmiş və çətinliklərinə əlac tapmamışdır. İnsanları daim təzyiq altında saxlamış, onları idarə etmiş və həqiqi dünyagörüşünün inkişafına maneçilik törətmişdir. Həmçinin dini mədəniyyət belə, öz vəzifəsini lazımınca yerinə yetirməmişdir. Beləliklə də, bütün bunlardan narazı olan müasir insan bu tabelikdən xilas olmaq istəyir (Mehmedoğlu 2004, 33).

Z.Freydin dinlə əlaqəli subyektiv fikirlərini kənara qoysaq, onun psixologiya sahəsindəki fəaliyyəti təqdirəlayiqdir; məhz psixoanaliz sayəsində psixologiya müstəqil bir elm sahəsi olmaq yolunda ilk nailiyyətlərini qazandı. Alimin özünəməxsus uğularını iki qismə ayırmaq mümkündür: birinci qismə zehnin mərtəbələrini təşkil edən şüur və təhtəlşüur (şüuraltı), şəxsiyyətin əsasını ifadə edən id, eqo və super-eqo, ikinci qismə isə insanın daxilində baş verən qarşıdurmalara əsaslanan nevrotik əlamətlərin ortadan qaldırılmasına yönəlmiş psixoanalitik müalicə metodu daxildir (Mehdiyev 2011, 376).

Dinə olan münasibətini bütün əsərlərində açıq şəkildə dilə gətirən Z.Freyd "Musa və təktanrıçılıq" kitabında dinə xüsusi və tənqidə açıq bir baxışla yanaşmışdır. Bu məqalədə mümkün qədər əhatəli şəkildə Freydin dinə olan münasibətinə və bu münasibətlərin kontekstində uyğunsuzluqlara nəzər yetirəcəyik.

## Z.Freyd psixoanalizin qurucusu kimi

Z.Freyd "təkər və elektrikin kəşfi qədərə mühüm" dediyi psixoanalizin qurucusudur (Köse 2016, 8). O, Vyananın 200 km şimal-şərqində yerləşən Freiberq qəsəbəsində, çoxuşaqlı bir yəhudi ailəsində dünyaya gəlmişdir. Kiçik yaşlarından dərslərini ibrani dilində almış və Kitabi-Müqəddəs ilə yaxından tanış olmuşdur. Alimin atası Yakob Freyd liberal məntiqli və açıqdüşüncəli insan olmuşdur. Bəlkə də bu xüsusiyyət Freydə təsir etmişdir ki, o, başqaları tərəfindən inkişaf etdirilən hipnoz və digər üsullarla kifayətlənməyib, öz yolunu və metodunu müəyyən etmişdir. Ziqmund ailənin ilk övladı olduğundan, anasının məhəbbətini hər zaman üzərində

hiss edirdi. Ailənin böyük övladı olması onda həm də belə bir keyfiyyətin formalaşmasına səbəb olmuşdu ki, kiçik qardaşlarına düşməni duyğular bəsləyirdi. Meissner Freydin "Musa və təktanrıçılıq" kitabında meydana çıxardığı obrazı araşdırarkən, onun bu əsərinin bir ailə hekayəsi olduğunu bildirir. Meissnerə görə, Freyd burada Musanın kiçik qardaşı Harunu görməzdən gəlməyə belə cəhd etmişdir (Köse 2016, 16). Z.Freydin dinə qarşı həm tarixi, həm də psixoloji baxımdan sərt yanaşmasının müxtəlif səbəbləri olmuşdur. Bu səbəblər məhz onun uşaqlıq illərində yaşadığı hadisələrlə yaxından əlaqəlidir. Ziqmund hər şeydən əvvəl yəhudi olsa da, böyük bir xristian cəmiyyətində böyümüşdü. Yəhudilərin məruz qaldığı psixoloji təzyiqlər Freydin düşüncə tərzindən təsirsiz ötüşməmişdir. O, uşaqlıq illərinin sıxıntılı keçdiyini həmişə dilə gətirmişdir. Bu sıxıntıların səbəbi isə dini qarşıdurmalar olmuş, xristianların təzyiqi ilə doğulduğu torpaqlardan ayrılmışdır. Azyaşlı Freyd üçün din konkret olaraq gözünün qarşısında var olan xristianlıqdan, daha doğrusu, katoliklikdən ibarət idi. Belə bir şəraitdə böyüyən uşağın illər sonra radikal bir yəhudiyə çevrilməsi ehtimal olunsa da, Freydin atası yəhudiliyi tərk etmişdi. Beləliklə, Freyd üçün yəhudilik etnik və sosioloji faktdan başqa bir şey deyildi (Köse 2016, 19). Tədqiqatçı alimin dini düşüncəsinin formalaşmasında xüsusi rol oynayan digər faktor onun katolik dayəsi idi ki, o, çexoslovakiyalı olub, Freydlə çex dilində danışırdı. Dayə Freydi kilsəyə aparır, ayinləri izah edir, Cənnət və Cəhənnəm haqqında danışırdı. Bir müddət sonra dayə oğurluq etdiyindən işdən qovuldu. Sözügedən hadisə Freydi çox sarsıtmışdı – o, inandığı və güvəndiyi dayəsini xristianlığın simvolu kimi görsə də, artıq onda xristianlığa qarşı bir antipatiya yaranmışdı (Köse 2016, 17).

1873-cü ildə Z.Freyd orta məktəbi bitirib, tibb təhsili almaq üçün Vyana Universitetinə daxil oldu. Bu dövrdə o, Darvin nəzəriyyələrindən çox təsirlənmişdi. Freyd tibb təhsili ilə kifayətlənməyib, həm də psixologiyaya maraq göstərirdi. Gənc yaşlarında Hötenin (Goethe) təbiət haqqındakı yazdıqlarından və Kitabi-Müqəddəsdən təsirlənmişdi. Buna baxmayaraq, Tanrı və əbədilik inancının olmadığı və buna ehtiyac duyulmadığı bir şəraitdə böyüdüyü üçün Müqəddəs Kitabı, sadəcə, əxlaqi cəhətdən cəlbedici hesab etmişdir (Köse 2016, 21).

Z.Freyd tezliklə yaşadığı dövrün psixiatriya sahəsinin önəmli şəxslərindən olan Jan-Martin Şarkodan (Jean Martin Charcot) isteriya xəstəliyinin nevroloji köklü olduğu ilə yanaşı, psixoloji səbəblərdən də yarana biləcəyini və xəstənin zehnindəki bəzi düşüncələrlə əlaqəsini öyrənir. Şüur obyektinin xaricində başqa bir sahənin olduğunu, cinsi problemlər ilə nevroz arasında əlaqənin ola biləcəyini ilk dəfə Şarko ilə tanış olduqdan sonra düşünməyə başlamışdır. Qeyd edək ki, bu dövrdə alimin təhtəlşüurla (şüuraltı) əlaqəli fikirlərinin əsası formalaşmağa başlamışdır. İsteriya və hipnoz haqqında Şarkodan öyrəndikləri, artıq Freyd üçün nevrologiyadan psixologiyaya keçid demək idi (Köse 2016, 23).

Z.Freyd 1886-cı ildə Vyanada Nevroloji Sağlamlıq Mərkəzi açaraq, uşaq beyin iflici və nevropatologiya sahəsindəki araşdırmalarını davam etdirdi. 1889-cu ildə A.Liebeanet və H.Beruheimi görmək üçün Naney şəhərinə gedərək, onlardan təlqinə açıq olmağın, sadəcə, isterik və nevrotik xəstələrdə deyil, hətta sağlam insanlarda

belə, müşahidə edildiyini öyrəndi. Alim burada şüurun xaricində başqa bir zehni prosesin var olduğuna tamamilə əmin oldu. Daha sonra Freyd vyanalı İosif Breyerlə (Josef Breuer) birgə araşdırmalara başladı. Həmin dönəmdə Breyer bir metod üzərində çalışırdı. Bu metoda görə isteriya keçmişdə yaşanan, lakin sonradan unudulan psixoloji bir travma nəticəsində qavranılırdı. Unudulan travmaların xatırlanması üçün xəstəni hipnoz vəziyyətinə salmaq lazım gəlirdi.

1896-cı ildə Freyd Breyerdən ayrıldı və həm metod, həm də praktiki baxımdan dəyişikliklər edərək, öz sistemini – psixoanalizi yaratmağa başladı (Köse 2016, 24).

Hipnoz metodundakı təlqinin yerini tezliklə "sərbəst assosiasiya" tutdu ki, bu üsul vasitəsilə xəstənin ağlına gələn düşüncəni dilə gətirməsi mümkün olacaqdı. Bir qədər keçəcək, Z.Freyd bu metoddan geniş istifadə edəcəkdi. Alim yaradıcılığının bu dönəmində şüuraltı və nevrotik halların səbəbləri sahəsində ənənəvi tibbdən fərqli bir düşüncə ortaya qoymuşdu. Maraqlı cəhət burasıdır ki, əvvəllər onun bu fikirləri dəstəklənməsə də, 1906-cı ildən etibarən, tələbələri Z.Freydin ətrafına toplanmağa başladı. Bunların arasında Sürixdə yerləşən əqli xəstəxananın baş həkimi Eygen Bleyler (Eugen Bleuer), onun assistenti Karl Qustav Yunq, Alfred Adler, Otto Rank kimi şəxslər var idi.

1911-ci ildə cinsi düşüncələrini psixoanalizlə əlaqələndirməsi nəticəsində A.Adler, daha sonra – 1914-cü ildə dini düşüncələrinin XIX əsrin elminə xas olan rasionalist materializmə söykənməsi səbəbi ilə K.Q.Yunq Z.Freyd ilə yollarını ayırdı (Köse 2016, 25).

Məlum olduğu kini, Z.Freyd dedikdə, ağla ilk gələn psixoanaliz sistemidir. Psixoanalizin meydana gəlişi 1896-cı ilə təsadüf edir. K.Yunq 1914-cü ildə Freyddən ayrıldıqdan qısa müddət sonra, I Dünya Müharibəsi başlandı və psixoanaliz geniş şəkildə təşəkkül tapa bilmədi (Köse 2016, 25). Bir şəxsiyyət sistemi hesab edilən psixoanalizin əsas ünsürləri instinkt, şüur və şüuraltıdır. İngilis sözü olan "instinkt" tam olaraq Z.Freydin bildirdiyi mənanı ehtiva etmir. Səbəb budur ki, alman dilindəki "instinkt" kəlməsini Freyd insanlara aid olaraq deyil, heyvanların doğuşdan sahib olduqları implusları ifadə etməkdən ötrü istifadə etmişdir. Freyd instinktləri iki hissəyə ayırmışdır: həyat instinkti (life instinct-eros) və ölüm instinkti (death instinct-thanatos). Həyat instinktlərinə aclıq, susuzluq, təbii ehtiyac və digər fəaliyyət daxildir. Sözügedən fəaliyyətlər libido vasitəsilə meydana çıxan, həyatın davamını təmin edən yaradıcı güc və enerji formalarıdır. Ölüm instinkti isə dağıdıcı bir funksiyaya yiyələnib, mazoxizm və intihar hallarında olduğu kimi daxili və ya nifrət duyğusuna bənzəyən xarici bir qüvvədir. Freydin fikrinə görə, həyatın bütün məqsədi ölümdür və biz daim ona doğru gedirik.

Şüur və təhtəlşüur terminlərinə gəldikdə isə Freyd ilk araşdırmalarında ruhi həyatın bu iki hissəsindən bəhs etmişdir. Şüur (conscious) aysberqin görünən tərəfini təşkil etməklə, kiçik və əhəmiyyətsiz, şəxsiyyətin isə görünən, lakin səthi tərəfini əks etdirir. Təhtəlşüur (unconscious) isə tam əksinə, insan davranışlarının arxa planındakı impulsiv və instinktiv keyfiyyətləri əks etdirdiyinə görə əhəmiyyətli və güclüdür. Freyd, həmçinin şüuröncəsinin (preconscious-foreconscious) var olduğunu qeyd etmişdir. Təhtəlşüurdakı materiallardan fərqli olaraq buradakı xatirələr

tamamilə təzyiq altında tutulmur və asanlıqla şüura qayıda bilir (Schultz 2007, 607-608).

Psixoanalizin əsasında dayanan ən önəmli xüsusiyyətlərdən biri insanın şüurundan kənar bir zehni prosesə sahib olmasıdır. Bu proseslər məhz psixoloji xəstəliklərin və nevrotik halların mənbəyi hesab olunur. Z.Freydin psixoanalizi qurmazdan əvvəl isteriya üzərində apardığı araşdırmalar alimə bu nəticəni çıxarmağa əsas vermişdir. Z.Freydin birlikdə araşdırma apardığı nevroloq İosif Breyer (Josef Breuer) 1880-1882-ci illərdə Bertha Pappenheim adlı isterik xəstəliyi olan qadını sağaltmağa cəhd etsə də (Köse 2016, 30), müalicə yarımçıq qaldı. Sonralar Freyd bu müalicəni öz üzərinə götürüb, qadını yenidən müayinə edərkən, onun sağalmadığı qənaətinə gəldi. Tarixdə "Anna O." şərti adı ilə tanınan bu qadının aparılan araşdırmalar nəticəsində tam olaraq sağalmadığı aşkar olundu (Köse 2016, 31). Freyd Anna üzərində apardığı araşdırma sayəsində psixoanalizin əsaslarını təşkil edən başlıca ünsürləri ortaya qoymuşdur. Bunlardan "sərbəst assosiasiya" üsulunu misal göstərmək mümkündür. Bu metodda Freyd xəstələrin tez-tez gördükləri yuxularından bəhs etdiklərini, hətta əksər hallarda bu yuxuların assosiasiya edilən mövzular ilə əlaqəli olduğunu müşahidə edir; həmçinin görülən yuxuların formadəyişmələrinə baxmayaraq, müəyyən bir məna daşıdığınıanlayırdı. Əlavə olaraq xəstələr gördükləri yuxu üzərində sərbəst assosiasiya etdikləri zaman, oyaq olub yaşadıqları hadisələri danışarkən assosiasiya edə bilmədikləri an və duyğuları da izah edə bilirlər. Freyd bütün bunlara aydınlıq gətirmək üçün əksər hallarda öz gördüyü yuxuları belə əlavə edib araşdırmağa başlayır. Alimin 1990-cı ildə qələmə aldığı "Yuxuların yozumu" adlı kitabında qeyd etdiyi nümunələrin çoxu məhz öz gördüyü yuxulardır. Bu tədqiqatlardan sonra Freyd təhtəlşüurda təzyiq altında tutulan istəklərin yuxu zamanı şüura çıxdığı qənaətinə gəlir (Geçtan 1998, 23). Freyd, eyni zamanda, təhtəlşüurda gizli zehni prosesin ola biləcəyini irəli sürərək, psixoanalizin 2 əsasını ortaya qoydu. Bunlardan birincisi, "qarşıdurma halında duyğuların təzyiq altında tutulması narahatlığa səbəb olur", ikincisi isə "zehni enerji lazım olan yerdə istifadə olunmasa, o da narahatlığa səbəb olur" fikirləri idi (Köse 2016, 32).

Qeyd etdiyimiz kimi, psixoanalizin əsası olan duyğuların təzyiq altında tutulması Z.Freydə görə, nevrozun mənbəyidir. İngilis dilindən tərcümədə repression – sıxma, təzyiq mənasına gəlir ki, bu da psixoanalizə görə keçmişdə yaşanmış travmatik hadisələrin və bunların nəticəsində yaranan hissi, iztirab verən, yaxud utanılan halların təhtəlşüurda tutulmasıdır. Beləliklə, "təzyiq altında tutma" şüur ilə təhtəlşüurda qalaraq tarazlığı saxlayır. Bəzən bu, insanın özünün belə, fərqində olmadan qarşıdurmaya səbəb olur. Nəticədə isteriya, nevrotik xəstəliklər, fobiya kimi narahatlıqlar ortaya çıxır (Köse 2016, 33). Freyd insanın idarə mexanizminə sahib olmadığını düşünür. O, idarə mexanizmini – təhtəlşüurda tutulan və hər an aşkara çıxmağa cəhd göstərən duyğular olaraq ifadə edir. İnsanın həqiqi şəxsiyyətinin formalaşmasının təhtəlşüurdakı duyğuların aşkara çıxmasından asılı olduğu fikrini irəli sürür (Coşkun 2006, 11).

Z.Freyd özündənəvvəlki psixoloji anlayışları "səth psixologiyası" adlandırır, öz psixoloji anlayışını isə "dərinlik psixologiyası" kimi təqdim edir. Bunun səbəbi

psixoanalizin ruhdakı problemləri həll etmək üçün ruhun dərinliklərinə enməsi, təhtəlşüuru araşdıra bilməsi idi. Psixoanaliz sözünün mənası "ruh təhlili" deməkdir. Səthi psixologiya ilə məşğul olan psixoloqlar daha çox üzdə olan məqamlara diqqət yetirir, şüürda olan, insanın fərqində olduğu, xatırladığı hadisələrə yönəlir. Halbuki, Freyd təhtəlşüurun şüurdan daha önəmli olduğunu, aysberqin görünməyən tərəfinə bənzədiyini qeyd etmişdir. Psixoanalizi qavramaqdan ötrü onun əsasını təşkil edən məfhumları bilmək lazımdır. Bunlar id, eqo, super-eqo, libido və digər nüanslardır (Şentürk 1996, 249).

Z.Freydə görə, id, eqo və super-eqo şəxsiyyətin əsasını təşkil edən və bir-biri ilə daim əlaqədə olan bir sistemin komponentləridir. İd şəxsiyyəti təşkil edən təbii quruluşdur; əngəl oluna bilməyən və xaricə çıxmağa çalışan, bir növ, ilk enerjidir. İd instinktiv, irrasional və asosialdır; yalnız özünü fikirləşir və zövq axtarışındadır, həmçinin,bir növ, İslam dinindəkinəfsin qarşılığıdır. Bununla birlikdə id həmişə öz axışında olmur, onun istəklərinin qarşısına maneələr (Ayten 2013, 63; Crapps 2004, 174), həmçinin super-eqo çıxır. Super-eqo isə idin tam əksi olaraq cəmiyyətin, sosial normaların qorunmasını hədəfləyir. İdin xaricə verə biləcəyi zərərin qarşısını almaq məqsədilə ona mane olmağa çalışır. Belə olduqda id ilə super-eqo arasında bir qarşıdurma yaranır. Freydə görə bu da nevrozun ilk addımlarıdır; yəni təmin olunmayan istəklərinin qarşısında id üsyana qalxır. İd ilə super-eqo arasındakı tarazlığı eqo qorumağa çalışır. Eqo həm idin, həm də super-eqonun istəklərini təmin etməyə çalışır (Köse 2016, 35). Klassik psixoanalizə görə, şəxsiyyət bu üç sistemin birləşməsindən əmələ gəlmişdir (Ayten 2013, 64; Crapps 2004, 174). Freyd bu fikirləri üzərində araşdırma apardığı xəstələrdən əldə etdiyi təcrübələr ilə sübuta yetirməyə çalışır. İsteriya və fobiya kimi psixoloji xəstəlikləri araşdırarkən cəmiyyət, nizam-intizam, din və ailə kimi faktorların super-eqo üzərində mənfi iz qoyduğu nəticəsinə gəlir. Təmin olunmayan bir çox istək təzyiq altında saxlanılaraq, təhtəlşüura göndərilir və nəticədə ruhi xəstəliklər meydana gəlir. Belə ruhi xəstəliklərin müalicə olunması üçün isə super-eqodan gələn təzyiqlər aradan qaldırılmalı, instinktlər isə tam şəkildə təmin edilməlidir (Coşkun 2006, 4).

## "Musa və təktanrıçılıq" əsərində Z.Freydin tezisləri

Bu əsərdə Z.Freyd dinə bir neçə nöqteyi-nəzərindən cəhətdən yanaşmış, həm tarixi, həm də psixoanalitik baxımdan dini izah etməyə çalışmışdır. Bu düşüncələri isbat etməyə kifayət qədər dəlili olmadığını özü də bildirmişdir. Eyni zamanda, fikirləri arasında həm tarixi, həm də psixoloji nöqteyi-nəzərdən ziddiyyətlər də mövcuddur. Buna baxmayaraq, ortaya qoyduğu tezislərin yanlış olduğu ehtimalını nəzərə almaqdan imtina etmişdir. "Musa və təktanrıçılıq" əsərində Z.Freydin vurğuladığı məqamları 3 aspektə ayırmaq mümkündür: dini, psixoloji və tarixi; dini olanları belə sıralamaq olar:

1. Musanın yəhudilərə gətirdiyi dinin Misir dini olması.
2. Aton dini ilə yəhudilik arasında əlaqə.
3. Sünnət adətinin misirlilərdən yəhudilərə keçməsi.

Psixoloji cəhətdən Z.Freyd burada dini psixoanalitik bir baxışla analiz edir. Başqa sözlə desək, psixoanalizi dinə tətbiq edir.

Freydin fikrincə, dindarlar psixoanalizi anlamadıqları üçün onu tənqid edirlər. Bunu qəti şəkildə qəbul etməyən alimin özü şəxsi fikirləri ilə dinə müdaxilə etməkdən çəkinmir. Nəhayət, tarixi fikirlərini belə sıralamaq olar:

1. Musanın tarixi baxımdan yəhudi deyil, misirli olduğu fikri.
2. Tarixdəki Musa dualizmi.
3. Xristianlığın oğul dini olaraq ata dini olan yəhudilikdən meydana gəlməsi.

Birinci tezis Musanın yəhudi deyil, misirli olduğu fikridir ki, bunun tam olaraq isbatı yoxdur. Tarixi baxımdan, bu, tamamilə dəlilsiz bir fikirdir. Sadəcə, Musa adının misirmənşəli olması onun bu nəticəyə gəlməsinə səbəb olmuşdur. Freyd keçmiş dövrlərdə insanın adına görə hansı millətə mənsub olduğu düşüncəsini ortaya qoyaraq, buna qarşı çıxanlara cavab vermişdir. Tarixçilərin bunu etiraf etməməsinin səbəbini isə "Əhdi-ətiq"ə zərər gəlməməsində və Musanın ibrani olmamasının çaşqınlığa səbəb olacağında görmüşdür. Əlavə olaraq bildirək ki, Freydin "mif" adlandırdığı yəhudi inancına görə, Musa Misir fironunun qızı tərəfindən övladlığa götürülmüş və uşağa öz mədəniyyətinə uyğun bir ad qoymuşdur (Köse 2016, 140; Köse 1998, 39).

Freydin ortaya qoyduğu digər tezis isə misirli Musanın yəhudilər tərəfindən öldürülməsi və sonrakı dövrdə mədyənli Musanın gəlişi fikridir. O, bu fikrində E.Sellinin tezisindən faydalanmış və məsələni psixoanalitik baxımdan izah etməyə çalışmışdır. Belə ki, misirli Musa yəhudilər tərəfindən öldürüldükdən sonra onun Exnatondan (Akhenaton) aldığı və yəhudilərə gətirdiyi din də rədd edilmişdir. Musa ilə birlikdə Misirdən çıxan yəhudilər Kənan ərazisi ilə Misir arasındakı ərazidə məskunlaşan digər qəbilələr ilə Qadeş bölgəsində birləşmiş və beləcə, Musa öz dinini bu qəbilələrə mənimsətmişdir. Bundan əlavə, Freyd təktanrıçılığın Misir imperiyasının "əlavə məhsulu" kimi ortaya çıxdığını və tək Tanrının da həmin imperiyanın hakimi olan fironun bir inikası olduğunu qeyd edir. Yəhudilərin mövcud olduqları şəraitin milli tanrıdan universal tanrıya keçidə imkan vermədiyini bildirir (Köse 2016, 151-152; Köse 1998, 46-47).

Z.Freyd "Əhdi-ətiq"də bəhs edilən bir neçə hadisəyə toxunmuş, onların bəzilərinin həqiqətəuyğun olmadığını bildirmişdir. Belə ki, Musaya qarşı baş verən üsyanları və bu üsyanların Yahovanın əmri ilə qanla susdurulduğunu "Əhdi-ətiq" təsdiq edir. Məsələ burasındadır ki, üsyanların hamısı müqəddəs kitabda qeyd olunduğu tərzdə bitmir. Alimin fikrinə görə, "Qızıl buzov" hekayəsi yəhudilərin yeni dini qəbul etməmələrinə işarədir və bu hadisə Tövratda tam olaraq mövcud deyil; həmçinin "On əmr"in yer aldığı "şəhadətin iki lövhəsi" Musa tərəfindən deyil, yəhudilər tərəfindən sındırılmışdır. Tövratda isə bu, Musaya aid edilmişdir (Köse 2016, 152; Köse 1998, 47).

Z.Freydin psixoanaliz metodunu tənqid edənlər həmin metodu onun həyatına tətbiq edərək, alimin bu əsəri yazmasının səbəbini atasına qarşı bəslədiyi qəzəb hissində görürlər. Bu da uşaqlıqda Freydin yaşadığı bir təcrübə ilə bağlıdır. Bir axşam atası evə gəlib, bir nəfərin ona "Yoldan çəkil, pis yəhudi!" deyərək yeni aldığı kürk

papağını yerə atdığını söylədi. Həmin vaxtlar 12 yaşında olan Freyd cəld atasından həmin adama nə cavab verdiyini soruşduqda, atası "Heç nə deməyib papağımı götürdüm", – cavabını verdi. Freyd bu hadisədən çox təsirlənir və atasını anti-semitizmlə yetərincə mübarizə aparmamaqda günahlandırır. Atasına bənzəməməyə söz verən Freyd özünü Karfagen generalı Hannibalın yerinə qoyur (Köse 2016, 20; Bağçeci 1998, 23). Beləcə, özünü Avropa və katolik kilsəsinin təmsilçisi olan Roma ilə mübarizə aparan və intiqam almağa çalışan bir qəhrəman kimi təsvir edir. Əsərdə Freydin atası ilə Musanı eyniləşdirdiyini görürük (Köse 2016, 152-153; Köse 1998, 47).

Psixoloq tarixi fakt kimi təqdim edilən Musanın ölümündə də atasına olan qəzəbini ifadə edir. Freydin zəka məhsulu olan irəli sürdüyü tarixi məqamlara görə misirli Musa yəhudilər tərəfindən öldürüldükdən sonra, Mədyənli Musa ortaya çıxmışdır ki, bu da irəli sürülən önəmli tezislərdən biridir. Misirli Musa öldürüldükdən sonra yəhudilər digər xalqlar kimi, yerli tanrılara ibadət etməyə başlayır. Sözügedən hadisə yəhudilər üçün həm də travma xarakterli təcrübə səciyyəsi kəsb edir. Qeyd edək ki, Musanın gətirdiyi monoteist din tam olaraq yox olmur, xalqın şüuraltına sıxılmış formada təzahür edir, daha sonra isə arxaik olaraq meydana çıxır. Belə ki, Musanı öldürdüklərinə görə peşman olan yəhudilər yenidən Musanın tanrısına geri dönür və onun gətirdiyi din yenidən canlanır (Köse 2016, 153; Köse 1998, 47-48).

Z.Freyd bu məqamda Darvin ilə Musa arasında paralellik qurub, hər ikisinin də əvvəlcə rədd edilib, sonradan təqdir olunduqlarını söyləyir. Bu, davranış formasının qrup psixologiyasından meydana gəldiyini və hadisələrin cərəyan etməsinin zaman və məkan məsələsi olduğunu bildirir. Freyd fərdin psixoloji quruluşunun bu müddətə uyğun olduğunu qeyd edir. Bu səbəbdəndir ki, fərd yeni bir məlumat əldə etdikdə bu məlumat onun şəxsi qənaətlərinə ziddirsə, ona qarşı çıxır, müəyyən bir müddət tərəddüd edir, özünü müdafiə üçün dəlillər tapmağa çalışır, özü-özü ilə mübarizə aparır, amma nəticədə bu yeni məlumatı qəbul edir. Eqonun əqli tərəfinin hissi tərəfini məğlub etməsi üçün zamana ehtiyac vardır (Köse 2016, 153-154; Köse 1998, 48). Burada məlumat üçün bir məqamı qeyd etmək lazımdır; Freydin yəhudilərin Musanı öldürmələri ilə başlayan və ondan öyrəndiklərini təzyiq altında tutmaları ilə davam edən müddətdəki təcrübələrini təhlil etməsi onun id-eqo nəzəriyyəsini xatırladır. Buna görə təzyiq altında yeridilən məfhum şüursuzdur və id bölgəsinə aiddir. Qeyd edək ki, bu, eqoya aid olan hər şeyin şüurlu olduğu mənasına gəlmir. Şüurluluq ruhi müddətə müvəqqəti olaraq bağlanma halıdır. Bu səbəbdən, "şüur" əvəzinə, "şüurlu olmaq qabiliyyəti" məfhumu istifadə olunmalıdır ki, belə hal "ön şüur" olaraq təsvir edilə bilər. Bu səbəbdən, eqo təməldə şüurlu, amma onun təbəqələri şüursuzdur. Köhnə travmaların təsirləri də iddə təzyiq altında tutulur və onların xatırladıcı qalıqları bu vəziyyətdə şüursuzdur. Bütün bunlar iddən yuxarıya doğru çıxmağa cəhd göstərir. Şəxsin ruhi quruluşuna təsiri olan bu travmalar, sadəcə, onun yaşadığı təcrübələr yox, anadangəlmə olan arxaik qalıqlardır. Məhz Freyd burada id-eqo nəzəriyyəsi ilə əlaqə quraraq, Musanın öldürülməsi ilə yəhudi xalqının

yaşadığı təcrübənin illər sonra arxaik olaraq ortaya çıxdığını bildirir (Köse 2016, 154; Köse 1998, 48).

Dini nevrotik travma kimi qəbul edən Freyd "Musa və təktanrıçılıq" əsərində travmaların mərhələlərindən bəhs edir: "Bizim erkən yaşlarda təcrübə edib sonra unutduğumuz və mənim nevrozların etiologiyasında böyük əhəmiyyət verdiyim təəssüratlar travma adlanır" (Freud 1939, 117). Travmalar, təqribən, 5 yaşa qədərki dövr olan erkən uşaqlıq dövrünə aiddir ki, burada 2-4 yaşarası dövr daha əhəmiyyətli hesab olunur. Uşağın danışmağa başladığı müddət buraya daxildir".

Freyd travmaya qarşı olan həssaslığın uşağın dünyaya gəlməsindən nə qədər sonra meydana çıxdığı barədə dəqiq fikir deyə bilmədiyini bildirir. Uşaqlıq unutması – amneziya dövründə tamamilə unudulan bu təcrübələr "ekran xatirələri" adlandırılan təcrid olunmuş hafizə tərəfindən tez-tez kəsilir. Bütün bu məqamları Freyd 3 mərhələyə ayırır ki, bunlar da bir-biri ilə qarşılıqlı əlaqədədir; birincisi, həyatın ilk 5 ilində baş verən travmalar; ikincisi, uşaqlıq unutması, yəni amneziyanın meydana çıxması; nəhayət, üçüncü mərhələ seksuallıq və aqressivlik. Həmçinin Freyd travmaları bədən təcrübələri, qavrayışlar, eşidilən və görülən təcrübələr, yaxud sadəcə, təəssüratlar kimi təsvir edir (Freud 1939, 119-120-121). Freydin tənqid olunduğu nüanslardan biri də məhz budur. Yəni insanın təbiəti və dinin mənşəyi ilə bağlı olan fikirlərini izah edərkən həyatın ilk 5 ilinə, eyni zamanda, o dönəmdə yaşanılan cinsi və aqressiv impulslara həddindən artıq əhəmiyyət verməsidir (Acar 2016, 182).

Z.Freyd metod baxımından da tənqidlərə məruz qalmışdır. Dinə qarşı mənfi mövqeyi bəzən yetərincə dəqiq olmayan sübutlara əsaslanan nəticələr əldə etməsinə gətirmişdir. Bu daonun tənqid edilən tərəfin elmi tərəfdən üstün olması ilə bağlı şübhələri artırmışdır (Ayten 2013, 65; 15, 175; Acar 2016, 182). Bu baxımdan, Freyd dini qərəzli bir şəkildə tədqiq etmiş, ateizm fikrinə araşdırmalarının nəticəsi kimi gəlməmiş, əksinə, ateizmi araşdırmalarına tədbiq etmişdir (Köse 2016, 170; Acar 2016, 182).

Z.Freyd travmaların 2 cür təsiri olduğunu qeyd edir: müsbət və mənfi. Əvvəlcə müsbət təsirlərin xüsusiyyətlərini qeyd edərək bildirir ki, bu əlamətlər travmanı yenidən xatırladır, canlandırır, ən yaxşı halda isə yenidən reallaşdırır. Bu təsirlər "travmaya fiksasiya" və "təkrarlanma məcburiyyəti" terminlərində öz əksini tapır. Eyni zamanda, real səbəblərin və tarixi mənşələrin unudulmasına baxmayaraq, bu təsirlər sabit yönəliş formalarına çevrilir. Erkən uşaqlıq dövrünü qədərindən artıq "ana fiksasiyası"nda keçirən adam həyatı boyunca anası kimi onu qoruyan, ona xidmət edən bir qadın axtarışında olur. Mənfi təsirlər isə tam zidd məqsəd güdərək unudulmuş hər hansı bir xatirəni yenidən təkrarlayıb yada salmır. Freyd onların hamısını birlikdə "müdafiə reaksiyaları" başlığı altında toplayır. Bu mənfi təsirlər gələcəkdə özlərini hər hansı bir maneə və fobiyalarda göstərir ki, bu da xarakterin formalaşmasına əlamətdar dərəcədə töhfə verir (Freud 1939, 122-123).

## "Musa və təktanrıçılıq" əsərində Z.Freydin istifadə etdiyi psixoloji və dini terminlərin izahı və işlənmə məqsədləri

"Musa və təktanrıçılıq" əsərinə nəzər saldığımız zaman Z.Freydin burada müxtəlif mənalı bir çox termindən istifadə etdiyini görürük. Belə kəlmələrin bir neçəsinə nəzər yetirək. Tibb sahəsində geniş istifadə olunan "fiksasiya etmək" ifadəsini Z.Freyd travmanın təsirlərini bildirmək məqsədilə "travmaya fiksasiya" olaraq ifadə etmişdir (Freud 1939, 122). Digər bir termin isə uşaq unutması kimi izah olunan amneziyadır. Z.Freyd bu termini unudulan təcrübələrin yenidən xatırlanmaması olaraq istifadə etmişdir (Freud 1939, 120). Bu termin travmatik hadisələrin xüsusiyyətləri arasında yer almışdır.

Digər termin "ata-oğul əlaqəsinə hakim olan hissi ziddiyyət"olaraq ifadə edilən "ambivalens" kəlməsidir (Freud 1939, 141). Freyd bu termini, həm də "totemizm – atanı əvəz edənə sitayiş və ataya olan hissi izah edən totem ziyafəti" kimi izah etmişdir (Freud 1939, 133). "Ambivalens" sözünün mənası bir-biri ilə uyğunlaşmayan duyğu, düşüncə, istək və məqsədlərin insanda eyni anda mövcud olmasıdır. Bu məfhumu ilk dəfə E.Bleyler (Eugen Bleuler; 1875-1939) meydana çıxarmışdır. O, üç müxtəlif ambivalensin olduğunu qeyd etmişdir. Bunlardan birincisi, "istək" sahəsindəki ambilvalensdir ki, insan eyni anda həm danışmaq istəyə, həm də istəməyə bilər. İkincisi, "düşüncə" sahəsindəki ambivalensdir. Burada insan bir fikri həm müdafiə edə, həm də ona qarşı çıxa bilər. Üçüncü, ambivalens isə "duyğu" sahəsində olan ambivalensdir ki, bunun əsasında insanın başqa bir insanı həm sevib, həm də nifrət edə bilməsi fikri durur. Eyni zamanda, Bleyler ambivalensi şizofreniyanın ilk əlaməti hesab edir. Bu termini E.Bleylerdən öyrənən Z.Freyd ambivalensi daha çox hissi sahəyə aid etmişdir. O, ambivalensi inkişafın pregenital (ilk 6 illik cinsi inkişaf müddəti) mərhələsində istifadə etmişdir. Qeyd edək ki, bu mərhələdə cinsi və təcavüzkar təəssüratlar öz varlığını davam etdirir (Freud 1993, 253).

Freydin istifadə etdiyi başqa bir termin isə "filogenetika"dır. Biz bunu, bir növ, "irsi" adlandıra bilərik. Yəni fərd təkcə öz şəxsi davranışına deyil, irsi xüsusiyyətlərinə əsaslanan reaksiyalara da malikdir. Z.Freyd bunu belə ifadə edir: "Biz fərdin ruhi həyatında təkcə onun özünün təcrübə etdiyi şeylərin deyil, həmçinin doğuşdan gətirdiyi xüsusiyyətlərin, filogenetik mənşəli fraqmentlərin, arxaik bir mirasın mövcudluğunun fərqinə vardıqda yeni qarışıqlıq meydana çıxır" (Freud 1939, 157). Bunlar istifadə olunan terminlərdən sadəcə bir neçəsidir. Sözügedən terminlərin məna baxımından istifadə olunan terminlərdən sadəcə, bir neçəsidir. Bu terminlərin məna baxımından geniş əhatəli olması Z.Freydin əsərdə qeyd etdiyi müxtəlif nüansları anlamaq baxımından köməklik göstərə bilər.

## Nəticə

Dinin tarixi insanlığın tarixi qədər qədimdir. Tarixə nəzər saldıqda, dinə ehtiyac duymayan, hansısa dini inanclara meyil etməyən insan cəmiyyəti tapmaq mümkünsüzdür. Səbəb budur ki, din insanın bütün həyatını tam olaraq əhatə edən

dəyərlər sistemidir. Bu dəyərlər insan həyatında mühün yer tutur və hər an insanın onlara ehtiyacı vardır. Din, həmçinin cəmiyyətin mənəvi həyatını əks etdirir. O, özündə həm mənəvi, həm də əxlaqi sistemi birləşdirir. Din həm fərdi, həm də ictimai davranış normalarını müəyyənləşdirir. Bu baxımdan, insanların həyatında mühüm olan tarazlığın qorunması vəzifəsini yerinə yetirir. İnsanın təbii yardılışından meydana gələn bu ehtiyacın mənşəyinə dair müxtəlif nəzəriyyələr yaranmışdır.

Məqalədə də qeyd olunduğu kimi, heç də bütün psixoloji nəzəriyyələrdə din həmişə insanın təməl ehtiyacı, əvəzedilməz mənəvi dəyəri olaraq qəbul edilməmişdir. Bu nəzəriyyələrdən biri də Z.Freydin təsis etdiyi psixoanalizdir. Dinin insan psixologiyasındakı təsirlərinə tamamilə mənfi yöndən yanaşan Freyd, eyni zamanda, bir çox tədqiqatçılar tərəfindən tənqid olunmuşdur. Z.Freydin psixologiya sahəsindəki fəaliyyətinin nə qədər önəmli olduğunu daha əvvəldə də qeyd etmişdik. Bütün məsələlərə id-eqo-super eqo münasibəti kontekstində yanaşmaq səhv nəticələr əldə etməyə zəmin yaradır. Yəhudilərə qarşı aparılan təzyiqlərin mənfi nəticələrinin Freydin şüuraltında yerləşdiyini açıq şəkildə görmək mümkündür. Bunu uşaqlıqda yaşanmış olan hadisələrin şəxsiyyətin inkişafına olan təsiri ilə izah etmək mümkündür. Bu səbəbdən, Freyd, hətta tarixə belə müdaxilə edərək yəhudiləri müdafiəyə cəhd göstərsə də, yetərli qədər dəlilinin olmadığını özü də etiraf etmişdir.

Son olaraq qeyd edə bilərik ki, Z.Freyd istər tarixi, istərsə də dini nüanslara psixonalitik bir baxış ilə yanaşmışdır. Eyni zamanda, onun dini yalan hesab edərək insanın öz şəxsi şüur məhsulu olaraq təqdim etməsini onun subyektiv yanaşması kimi qəbul etmək mümkündür. Digər tərəfdən, öz tezisini qəbul etdirmək məqsədi ilə tarixi faktlarda dəyişiklik etməsi də elmi bir yanaşma deyildir.

## ƏDƏBİYYAT

1. Köse Ali. Freud ve Din. İstanbul, İz Yayıncılık, 2016.
2. Freud Sigmund. Moses and Monotheism. The Hogarth Press and the Institute of Psycho-analysis, 1939. Translated from the German by Katherine Jones.
3. Şentürk Habil. 1996. "Freud`un Psikoloji ve Din Anlayışına Eleştirel Bir Yaklaşım." Süleyman Demirel Üniversitesi İlahiyat Fakültesi Dergisi 3: 248-258.
4. Ayten Ali. Din psikolojisi. İstanbul, İz Yayıncılık, 2013.
5. Geçtan Engin. Psikanaliz ve sonrası. İstanbul, Remzi kitabevi,1998.
6. P.Schultz Duane, Schultz Sydney Ellen. A history of modern psychology. Modern Psikoloji Tarihi. Türkçe çeviri: Yasemin Aslay. İstanbul, Kaknüs yayınları, 2007.
7. Fromm Erich. Psychology and Religion. Psikoanaliz ve din. Türkçe çeviri: Elif Erten. İstanbul, Say yayınları, 2017.
8. Mehdiyev, Nebi. 2011. "Psikanaliz Bilimsel Bir Teori mi? İlham Dilman`ın Freud Yorumu." Kutadgubilig Felsefe-Bilim Araştırmaları Dergisi 19: 373-382.

9. Bağçeci, Muhittin. 1998. "Froydizm (Freudisme) ve Tenkidi." Erciyes Universitesi İlahiyat Fakültesi Dergisi 10: 3-26.

10. Atsız, Hasan. 2003. "Psikanaliz Penceresinden Tanrı ve Uygarlık İlişkisi." Din Bilimleri Akademik Araştırma Dergisi 3(1):131-152.

11. Coşkun, İbrahim. 2006. "Freud Ateizminin Dayandığı Psikolojik Teorilerin Tutarsızlığı." Dicle Universitesi İlahiyyat Fakültesi Dergisi 8(2): 1-19.

12. Acar, Muhammed Cevat. 2016. "S.Freudun Din ile İlgili Görüşlerinin Analizi, Sosyal Bilimler Akademisyenler Sempozyumu 1 Bildiriler Kitabı: 8-9 Mayıs 2015 Mardin. s.177-184.

13. Köse, Ali. 1998. "Musa ve Tektanrıcılık: Bir Tarih Psikanaliz Açmazları". Divan: İlmi Araştırmalar 3 (4): 37-56.

14. Crapps, Robert W. 2004. "Psikanaliz ve Din", çeviren: Ali Ayten. Marife: Dini Araştırmalar Dergisi [Bilimsel Birikim] 4(1): 171-190.

15. Koç, Mustafa. 2002. "Din Psikolojisi Açısından Psikanaliz ve Din Bağlamında S.Freud`un "Totem ve Tabu" Adlı Eseri Üzerine Bazı tespitler." Marife: Dini Araştırmalar Dergisi [Bilimsel Birikim] 1(3): 67-83.

16. Mehmedoğlu Ali Ulvi. Kişilik ve Din. İstanbul, DEM Yayınları, 2004.

17. Freud Sigmund. My life and Psychoanalysis. Türkçe çeviren: Kamuran Şipal. İstanbul, Engin Matbası, 1993.

***Наргизхатун Гасанова***

# ВЗГЛЯД З.ФРЕЙДА НА РЕЛИГИЮ В ПРОИЗВЕДЕНИИ "МОИСЕЙ И МОНОТЕИЗМ"

## РЕЗЮМЕ

Статья представлена читателю с учетом некоторых нюансов. В первую очередь проанализировано отношение З.Фрейда к религии, ее происхождению, позиции в психологии человека и жизни общества в целом. В этом смысле, основу объекта исследования составляют З.Фрейд, психоанализ, основоположником которого он является, и религия.

Для того, чтобы комплексно довести до внимания читателя характер этого отношения, в статье приведены различные нюансы, охватывающие как открытия, сделанные Фрейдом в психологии, так и теории религии. Чтобы немного понять причины его отрицательного отношения к религии, вкратце приводятся факты из жизни Фрейда. Это, также зависело от религиозно-бытовых условий места его проживания.

В статье, также отражена информация о его научной деятельности, а также сведения об известных ученых его эпохи, мысли которых повлияли на него.

Книга "Моисей и монотеизм" была выбрана не случайно. Многие исследователи считали это произведение продолжением "Тотема и Табу". Но и здесь немало нюансов заслуживают внимания. Взгляд З.Фрейда на историю в этом произведении тоже иной. Он применил психоанализ к некоторым историческим фактам. В результате возникло много различных мнений. По этой причине существуют много различий между историческим Моисеем и Моисеем, описанным З.Фрейдом в книге. Главная цель в статье - не определить достоверность либо ошибочность этих взглядов, а в целом увидеть связь между религией и психоанализом в стиле, который преподносит Фрейд. Для того, чтобы частично уловить эти мысли, необходимо правильно понимать теорию психоанализа и составляющие ее основу термины. И с этой целью в статье была сделана попытка абсолютно объективно выделить психологические, и в особенности, психоаналитические тезисы З.Фрейда.

***Ключевые слова:*** *религия, психоанализ, сознание, подсознание, травма, амнезия, инстинкт, ид, эго, супер-эго, невроз*

***Nargizkhatun Hasanova***

**FREUD'S VIEW OF RELIGION IN**
***MOSES AND MONOTHEISM***

**ABSTRACT**

The article is presented to the reader, taking into account some nuances. It analyzes Freud's attitude towards religion, its origin, position in human psychology and society as a whole. Thus, the objective of the study is Z. Freud, his psychoanalytic theory and religion.

In order to comprehensively bring the nature of this relationship to the attention of the reader, the article presents various nuances, covering Freud's contributions to psychology and the theory of religion.The facts from Freud's life are briefly summarized in the study for understating his reasons of negative attitude towards religion. It was also affected by the religious and living conditions of his place of residence.

The article also reflects information about his scientific activities, as well as information about famous scientists of his period, whose thoughts influenced him.

The book *Moses and Monotheism* was not chosen by chance. Many researchers considered this work to be a continuation of *Totem and Taboo*. Many nuances deserve attention in this book. S. Freud's view of history in this work is also different. He applied psychoanalysis to some historical facts. As a result, many different opinions have arisen. For this reason, there are many differences between historical Moses with the image described by S. Freud in the book. The main goal of the article is not to determine the authenticity or erroneousness of these views, but in general, to see the connection between religion and psychoanalysis in the style presented by Freud. In order to partially comprehend these thoughts, it is necessary to correctly understand the theory of psychoanalysis and the terms that constitute its basis. Thus, the article attempts to objectively identify psychoanalytic theory of Freud.

**Keywords:** religion, psychoanalysis, conscious, subconscious, trauma, amnesia, instinct, id, ego, super-ego, neurosis

**Çapa tövsiyə etdi: i.ü.f.d. A.M.Şirinov**